**QİYMƏTLƏNDİRMƏ TAPŞIRIĞI 1**

Ütü feni vasitəsilə saçın düzləndirilməsini və burulması

**Bu qiymətləndirmə aləti 4 hissədən ibarətdir.**

1. **Namizəd üçün təlimatlar:** Bu hissə namizədə təqdim edillir. Burada namizəddən hansı işlərin görülməsi tələb olunduğu aydın və dəqiq şəkildə bildirilməlidir. Buraya aşağıdakılar daxildir:
   - Namizədə ünvanlanmış tapşırığın göstərişləri (məs.: bu tapşırıqda sizdən aşağıdakıları etməyiniz gözlənilir... )
   - Tapşırığı tamamlamalı olduqları müddət.
   - Tapşırığın necə qiymətləndiriləcəyinə dair məlumat (məs.: tapşırığa neçə bal verilir və keçid üçün standart olaraq neçə bal lazımdır).

2. **Qiymətləndiricilər üçün təlimarlar:** Bu hissə qiymətləndiricilər üçündür. Buradakı təlimatlar tapşırığın ədalətli şəkildə qiymətləndirilməsi üçün bütün məlumatları əhatə etməlidir. Buraya aşağıdakılar daxildir:
   - Tapşırıq və nəyin qiymətləndirildiyinin təsviri
   - Qiymətləndirilmə başlamadan əvvəl hansı hazırlıqlara ehtiyac olduğu haqqında məlumat (məs.: hansı material və avadanlıqlara ehtiyac vardır, otaq necə təşkil edilməlidir)
   - Tapşırığa ayrılmış müddət
   - Tapşırıq yerinə yetirildiyi vaxtad qiymətləndiricilərin necə davranmalı olduğuna dair məlumat (məs.: namizədlə danışmalıdırlar? Harada oturmalıdırlar?)

3. **Qiymətləndirilmənin qeydiyyatının aparılması:** Bu blankdan istifadə edərək qiymətləndiricilər namizədin tapşırığı yerinə yetirməsinə dair öz qeydiyyatlarını aparmalıdır. Buraya aşağıdakılar daxildir:
   - Blankın necə doldurulmasına dair təlimatlar
   - Blank üzərində qiymətləndiricinin imza atması və tarix yazması üçün boş yer.

4. **Təlim nəticələri və qiymətləndirmə meyarları ilə əlaqənin qeyd olunması:** Bu son hissə tapşırığın uyğunluğunu yoxlamaq üçündür. Tapşırıqda əhatə olunan hər bir meyarın qarşısına (X) işarəsi qoyulmalıdır.

**1-ci hissə: Namizədlər üçün təlimatlar**

## QİYMƏTLƏNDİRMƏ TAPŞIRIĞI 1

Ütü feni vasitəsilə saçın düzləndirilməsi və burulması

**1. Tapşırıq nə ilə əlaqəlidir?**

Bu tapşırıqda siz ütü feni vasitəsilə saçın həm düzləndirilməsi, həmdə burulması əməliyyatını yerinə yetirməlisiniz. Tapşırığı yerinə yetirməyiniz aşağıdakılar nümayiş etdirilməlidir:

- Əməyin mühafizəsi və təhlükəsizlik tələblərinə əməl edə bilirsiniz;
- Sanitariya və gigiyena qaydalarına əməl etməlisiniz
- Bərbərxanada alətlərdən istifadə qaydasını bilməlisiniz
- Ütü fenlə təhlükəsizlik qaydalarına uyğun olaraq düzgün işləməyi bacarmalısınız.
- Ütü fenlə saçı düzləndirməlisiniz.
- Ütü fenlə saçı burmalısınız.

**2. Tapşırıq:**

Gördüyünüz işi salon səviyyəsində təhlükəsizlik qaydalarına uyğun olaraq yerinə yetirmək lazımdır.

Siz :

1. Müvafiq alət və ləvazimatlardan, staylinq vəsaitələrindən istifadə edərək tapşırığı yerinə yetirməlisiniz
2. Saçı ütü feni ilə düzgün formada düzləndirməlisiniz
3. Saçın uclarını ütü feni ilə burmalısınız

**İstifadə olunacaq ləvazimatlar:**

1. Ütü feni
2. Daraq
3. Sıxaclar
4. Örtük, dəsmal
5. Staylinq üçün vasitələr (mus, gel, lasyon, saç lakı).

**3. Müddət:**

Bu tapşırığı tamamlamanız üçün sizə **30 dəqiqə** vaxt verilir.

**4. Qiymət / Bal**

Yerinə yetirilən hər tapşırığa görə namizədə maksimum 45 bal verilir:
Əməyin mühafizəsi və təhlükəsizlik tələblərinə və sanitariya və gigiyena qaydalarına görə 6 bal
Saçın quruluşu haqqında məlumat vermək 3
Saçın yuyulması haqqında məlumat vermək 3
Saçın qurudulması haqqında məlumat vermək 3
Saçın tağlara ayrılması 5 bal
Alətlərdən və staylinq vasitələrindən istifadəyə görə 5 bal
Ütü fenlə saçın düzləndirilməsinə görə 10 bal
Ütü feni ilə saçın burulmasına görə 10 bal

**5. Keçid tələbləri**

Bu tapşırığı keçmək üçün minimum 30 bal lazımdır.